Ümumi məlumat	**Fənnin adı, kodu və kreditlərin sayı**	**PERS 206 Fars dili,** 6 AKTS	
	Departament	Dillər və ədəbiyyatlar	
	Proqram (bakalavr, magistr)	Bakalavr	
	Tədris semestri	2020/2021-ci təhsil ilinin yaz semestri	
	Fənni tədris edən müəllim (lər)	Rüstəm Lazımov	
	E-mail:	Rustam.lazimov@gmail.com	
	Telefon:	(050-055) 443-13-12	
	Mühazirə otağı/Cədvəl	Şənbə 10:10-11:40/11:50-13:20	
	Məsləhət saatları	B.e. 12:00	
Prerekvizitlər	**-**		
Tədris dili	**Azərbaycan və fars dilləri**		
Fənnin növü (məcburi, seçmə)	**Seçmə**		
Dərsliklər və əlavə ədəbiyyat	**T. Rüstəmova. Fars dili. 2013 və 2015 çapları.** **A. Pazargadi. Farsiye-asan. 2009** **AZFA 1. Yədullah Səmareh. Tehran 1993**		
Kursun vebsaytı			
Tədris metodları	**Mühazirə**	**Qrammatikanın izahı**	
	Qrup müzakirəsi	**X**	
	Praktiki tapşırıqlar	**Tapşırıqlar üzərində işləmək**	
	Praktiki məsələnin təhlili	**X**	
	Digər		
Qiymətləndirmə	**Komponentləri**	**Tarix/son müddət**	**Faiz(%)**
	Aralıq imtahanı		**30**
	Praktiki məsələ		
	Davamiyyət		**5**
	Fəallıq, tapşırıq və testlər		**10**
	Kursişi (Layihə)		
	Prezentasiya/Qrup müzakirə		
	Final imtahanı		**40**
	Digər		**15**
	Yekun		
Kursun təsviri	Fars dili şərq dilləri arasında əsas rolu olan və qədimdən günümüzədək elm və ədəbi dil kimi tanınan bir dildir. "Azərbaycan dili və ədəbiyyatı" ixtisası alan tələbələr üçün 90 saat həcmində əsas filoloji fənn kimi tədris edilir. Fənnin məqsədi tələbələrə zəngin yazılı arxiv və qaynaqlardan istifadə etmək bacarığı yaratmaqdır. Fənnin vəzifəsi- bu dilin qeyd olunan ixtisas üçün əhəmiyyəti və elm sahəsindəki yeri haqqında təsəvvürlər yaratmaqdır.		

Kursun məqsədləri	"Əski Azərbaycan yazısı" fənnindən sonra tədris olunan kursun məqsədi, fars dilinin oxuma, yazma, anlama və danışma istiqaməti üzrə biliklər sisteminin yaradılmasıdır. Beləliklə, fənnin tədrisi prosesində tələbənin leksik bazasının formalaşdırılmasına və artırılmasına geniş yer verilir. Tədris zamanı tələbənin sahib olduğu leksik bazaya uyğun olaraq, praktiki tapşırıqlar vasitəsilə fars dilinin əsas qrammatik elementlərinin öyrədilməsi nəzərdə tutulur. Dilin tədrisi zamanı tələbə oxuduğu sadə mətn ətrafında fikir yürütmək kimi bilik, bacarıq və vərdişlərə yiyələnir. Tələbə şifahi və yazılı nitqdə gündəlik istifadə olunan söz və söz birləşmələrini öyrənir, onlardan şifahi və yazılı nitqdə nisbətən istifadə etmək bacarığına yiyələnir. İstifadə olunan dərsliklərdə leksik tapşırıq və materiallara geniş yer verilməsi ilə bərabər fonetik tapşırıqlara da yer verilir və bu növ tapşırıqlar dilin tədrisi zamanı tələbənin fonetik elementləri yaxşı mənimsəməsinə, eşitmə bacarıqlarını artırmağa xüsusi kömək edir. Qramatik qaydalar qısa şəkildə izah edilir. Qramatik qaydalara aid tapşırıqlar isə adətən keçirilən dərslik və dərs vəsaitlərində leksik və fonetik tapşırıqlarla sıx vəhdətdə olur. Dərsliklərin və dərs vəsaitlərinin bu cür formada olması tələbələrin qramatik bilikləri daha asan üsulla mənimsəməsində xüsusi rol oynayır və tədrisi daha maraqlı edir.
Təlim nəticələri	Tələbə semestrin sonunadək tədris zamanı sahib olduğu leksik bazaya uyğun olaraq, praktiki tapşırıqlar vasitəsilə Fars dilinin əsas qrammatik elementlərini nisbətən öyrənmiş olur. Oxuduğu sadə mətn ətrafında fikir yürütmək kimi bilik, bacarıq və vərdişlərə yiyələnir. Tələbə şifahi və yazılı nitqdə gündəlik istifadə olunan söz və söz birləşmələrini mənimsəmiş və onlardan şifahi və yazılı nitqdə istifadə etmək bacarığına yiyələnmiş olur. Nəticədə, tələbə yuxarıda qeyd olunan bacarıqlar sayəsində tələb olunan müxtəlif sahələrdə bu dildən nisbətən istifadə etmək bacarığına sahib olur
Qaydalar (Tədris siyasəti və davranış)	**Aralıq imtahanı** Yarı–Semestr müddətində keçirilən mövzular üzrə hazırlanmış qapalı və açıq sualların cavablandırılması nəzərdə tutulur. **Davamiyyət** Tələbə dərsdə 30% iştirak etməzsə imtahana buraxılmayacaq. **Fəallıq, tapşırıq və testlər** Fəallıq, tapşırıq və testlərə verilən bal tələbələrin ev tapşırığını düzgün şəkildə yerinəyetirməsi və sinifdə izah olunan dərs haqqında müzakirə və sual-cavabda iştirakı üçün nəzərdə tutulmuşdur. **Final imtahanı** Semestr müddətində keçirilmiş bütün mövzuları əhatə edən test və açıq suallardan ibarətdir. Suallar çətinlik dərəcəsinə görə asan, orta və çətin olur. **Digər** Danışıq dərsləri üçün nəzərdə tutulmuş mövzulardan götürülən şifahi imtahan üçün nəzərdə tutulmuşdur.Qrammatik izah, yazı və danışıq üzərində işləmək.

Cədvəl (dəyişdirilə bilər)

Həftə	Tarix (planlaşdırılmış)	Fənninmövzuları	Dərslik/Tapşırıqlar
1.	**13.02.2021** **13.02.2021**	**Fars dili haqqında ümumi məlumat. Fars əlifbasının xüsusiyyətləri.** **Fars dilinin bəzi fonetik və orfoqrafik qaydaları**	**T. Rüstəmova. Fars dili. 2005.s.7-10** **T. Rüstəmova. Fars dili. 2005.s.10-12**

2.	**20.02.2021** **20.02.2021**	**Fars dilində işlənən əlavə işarələr. Əvəzliklər.** **Oxu**	**T. Rüstəmova. Fars dili. 2005.s. 54-58 .s.60-68** **A. Pazargadi. Farsiye-asan. 2009.s.20-22**
3.	**27.02.2021** **27.02.2021**	**Bəzi təyini əvəzliklər. "Xod" və "Həme" əvəzlikləri** **Xəbər şəkilçisinin uzun və qısa forması."بودن"** **Oxu**	**T. Rüstəmova. Fars dili. 2005.s.96-98** **Fars dili. 2005.s.100** **A.Pazargadi. Farsiye-asan. 2009.s.10-15**
4.	**06.03.2021** **06.03.2021**	**"داشتن ،دار" sözlərinin işlənmə qaydaları. Qeyri-işgünü** **Mənsubiyyət kateqoriyası, və izafət birləşməsində yeri.** **İzafət birləşmələri və izafət zənciri**	**T. Rüstəmova. Fars dili. 2005.s.77-81 .s.81-92** **T. Rüstəmova. Fars dili. 2005.s.88**
5.	**13.03.2021** **13.03.2021**	**İzafət birləşmələri və izafət zənciri** **Cəm isimlər**	**T. Rüstəmova. Fars dili. 2005.s.105-110** **T. Rüstəmova. Fars dili. 2005.s.140-144**
6.	**20.03.2021**	**Qeyri-iş günü**	
7.	**27.03.2021** **27.03.2021**	**Qeyri-müəyyənlik artiklı** **Mətn, tərcümə**	**T. Rüstəmova. Fars dili. 2005.s.110-114** **T. Rüstəmova. Fars dili. 2005.s.144-147**
8.	**03.04.2021** **03.04.2021**	**Fel: əsası, quruluşu.** **Şühudi keçmiş zamanın təsdiq və inkarı** **Mətn, tərcümə**	**T. Rüstəmova. Fars dili. 2005.s. 116-119** **T. Rüstəmova. Fars dili. 2005.s.119-126** **T. Rüstəmova. Fars dili. 2005.s. 170-172**
9.	**10.04.2021** **10.04.2021**	**Bitməmiş keçmiş zaman** **Təkrar** **Aralıq imtahanı**	**T. Rüstəmova. Fars dili. 2005.s.164-169**
10.	**17.04.2021** **17.04.2021**	**Keçmiş zaman feli sifəti. Feli bağlama** **Nəqli keçmiş zaman və inkarı** **Mətn, tərcümə**	**T. Rüstəmova. Fars dili. 2005.s.147-154** **T. Rüstəmova. Fars dili. 2005.s.162 və170** **İstənilən mətn**
11.	**24.04.2021** **24.04.2021**	**Saat** **Sayların söz birləşməsində yeri Sıra sayları. Kəsr sayları** **Mətn, tərcümə**	**T. Rüstəmova. Fars dili. 2005.s. 187-189** **Fars dili. 2005.s.187-183** **Fars dili. 2005.s.184**

12.	**01.05.2021** **01.05.2021**	**Bəzi bağlayıcılar** **Uzaq keçmiş zaman və inkarı** **Mətn, tərcümə**	**T. Rüstəmova. Fars dili. 2005.s.197-199** **Fars dili. 2005.s.194-197** **Fars dili. 2005.s. 189-194**
13.	**08.05.2021** **08.05.2021**	**Felin indiki zamanda əsası, tam,qiyasi və səmayi fellər** **Sifət. Nisbi sifətlər. Sifətin dərəcələri** **Danışıq**	**T. Rüstəmova. Fars dili. 2005.s.208-212** **T.Rüstəmova, Fars dili.s. 261** **Farsiy-e asan. C.2**
14.	**15.05.2021** **15.05.2021**	**Müraciət qaydaları** **Qəti gələcək zamanı** **Danışıq**	**Fars dili.s.405** **Fars dili. S.229** **İstənilən mətn**
15.	**22.05.2021** **22.05.2021**	**Mürəkkəb və düzəltmə sifətlər** **Gələcək zamanın davam forması.**	**T.Rüstəmova, S.261 və S.407** **T.Rüstəmova.s.203**
16.	**29.05.2021**	**Təkrar**	
		Final imtahan	